# III BÖLMƏ

## ELM-KİTABXANA-CƏMİYYƏT QARŞILIQLI ƏLAQƏDƏ

**Moderatorlar:** *fil.ü.fəls.dok., dos.* ***Şəhla Quliyeva,***
*fil.ü.fəls.dok., dos.* ***Ələmdar Bayramov***
**Katib:** **Gülnar Məmmədova**

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MƏRKƏZİ ELMİ KİTABXANASININ YARANMA TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Şəhla Tahir qızı Quliyeva***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Mərkəzi Elmi Kitabxanasının direktor müavini*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*sehla-tahirqizi@mail.ru*
*Orkid.orq/0000-0001-7070-3201*

***Açar sözlər:*** *Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Biblioqrafiya bürosu, Əsaslı kitabxana, Mərkəzi Elmi Kitabxana, yaranma tarixi, inkişaf mərhələləri*

***Ключевые слова:*** *Общество исследования и изучения Азербайджана, Бюро библиографии, Основная библиотека, Центральная научная библиотека, история создания, этапы развития*

***Keywords:*** *Society for the Study and Research of Azerbaijan, Bibliography bureau, Main Library, Central Scientific Library, foundation history, development stages*

**Xülasə:** Məqalədə Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının yaranma tarixi və inkişaf mərhələləri xronoloji ardıcıllıqla araşdırılmış baş vermiş tarixi proseslər zamanı kitabxananın fəaliyyət istiqamətləri, qarşılaşdığı problemlər və əldə olunmuş nailiyyətlər təhlil olunmuşdur.

**Резюме:** В статье хронологически исследуются история создания и этапы развития Центральной научной библиотеки Национальной академии наук Азербайджана. В ходе анализа охвачены направления деятельности библиотеки в различные исторические периоды, проблемы, с которыми она сталкивалась, а также достигнутые успехи.

**Summary:** The article chronologically examines the foundation history and development stages of the Central Scientific Library of the Azerbaijan National Academy of Sciences. It analyzes the library's operational directions during various historical periods, the challenges it faced, and the achievements it attained.

Azərbaycanda Elmi Tədqiqatların təşkili və inkişafına dəstək göstərmək, milli elmi-mədəni irsin toplanması və qorunmasını təmin etmək, elmi biliklərin yayılmasını təşfiq etmək məqsədilə yaradılmış Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının əsası Azərbaycanın bir qrup ziyalısı tərəfindən 1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Biblioqrafiya bürosunun fəaliyyətə başlaması ilə qoyulmuşdur.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Müvəqqəti Şurasının 4 noyabr 1923-cü il tarixli 2 saylı protokolunda cəmiyyətin strukturu ilə bağlı qoyulan ikinci məsələ Biblioqrafiya bürosu, yeddinci məsələ isə cəmiyyətin kitabxanası haqqında olmuşdur. Həmin müddətdən keçən 1 il yarım vaxt ərzində Biblioqrafiya Bürosu üzərinə düşən məsələlərin həllinə çalışsa da, kitabxana ilə bağlı heç bir iş görülməmişdir.

Nəhayət 19 avqust 1925-ci ildə Azərbaycan Tədqiqat və Tətəbbö Cəmiyyətinin Mərkəzi Şurasının Rəyasət Heyətinin iclasında Biblioqrafiya Bürosunun işi haqqında məsələyə bir daha baxılmış, A.R.Zifeldin məruzəsi dinlənilmişdir. Məruzədə deyilir ki, cəmiyyətin kitabxanası sırf biblioqrafik iş olan kataloqlaşdırmanı həyata keçirdiyinə görə onun işində paralellik yaranır. Ona görə də kitabxana ilə Biblioqrafiya Bürosunun işi birləşdirilməlidir.

Beləliklə, AMEA Mərkəzi Elmi Kitabxanasının əsasının 1923-cü il noyabr ayının 4-də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəzdində yaradılan Biblioqrafiya Bürosunun bazası əsasında qoyulması ilə bağlı mülahizələr özünü doğrultmur. Çünki Biblioqrafiya Bürosunun üzərinə kitabxana funksiyasını yerinə yetirmək missiyası qoyulmamış, bu qurum haqlı olaraq Azərbaycan Biblioqrafiyasının hazırlanması vəzifəsi ilə məşğul olmuşdur. Bununla yanaşı, həmin il noyabrın 18-də kitabxananın təşkil olunması haqqında qərar qəbul edilsə də, sözün həqiqi mənasında, kitabxananı yaratmaq mümkün olmamış, bu iş yalnız 19 avqust 1925-ci ildən gerçəkləşməyə başlamışdır.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradıldı. İnstitutun yaranması və tərkibində bir sıra elmi bölmələrin meydana gəlməsi respublikamızın həyatında böyük hadisəyə çevrildi. Cəmiyyətin kitabxanası da həmin dövrdə xeyli zənginlənmiş, maddi-texniki bazasının inkişafı üçün vəsait ayrılmış, ştat vahidi artırılmış, oxucu kontingenti artmış, kitab dövriyyəsi genişlənmişdi.

1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edildi ki, bu da kitabxananın fəaliyyətini xeyli genişləndirdi. Artıq 1934-cü ildə kitabxananın fondunda 46.5 min nüsxə kitab və jurnal var idi. Həmin illərdə kitabxana SSRİ-nin və dünyanın böyük kitabxanaları, xüsusilə elmi-tədqiqat müəssisələri ilə geniş əlaqələr qurmuşdu.

1935-ci ildə SSRİ EA Rəyasət Heyəti akademiyanın Azərbaycan filialının yaradılması haqqında qərar qəbul etdi. 1935-ci ildən başlayaraq filialın mərkəzi kitabxanası ilə yanaşı, onun ayrı-ayrı institutları və bölmələri yanında 18 sahəvi elmi kitabxana da yaradılmışdı. Həmin dövrdə kitabxananın fondu 180 min nüsxəyə çatmış, beynəlxalq kitab mübadiləsi genişlənmişdi.

1945-ci ildə Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaradılması ilə əlaqədar kitabxananın tarixində yeni inkişaf mərhələsi başlanmışdır. Kitabxanaya bütün keçmiş Sovetlər Birliyində nəşr olunan ədəbiyyatın məcburi pullu nüsxəsini əldə etmək səlahiyyəti verilmiş, məlumat biblioqrafiya işinin yaxşılaşdırılması istiqamətində iş aparılmışdır.

1951-ci ildə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Elmi-Tədqiqat institutlarının kitabxana şəbəkəsinin fəaliyyətini əlaqələndirmək və onlara rəhbərlik etmək məqsədilə Kitabxana Şurası yaradılmış, dövrün görkəmli alimləri şuranın işinə cəlb olunmuşdu.

1963-cü ildə kitabxana Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin müvafiq qərarı ilə AEA- nın Əsaslı Kitabxanasına çevrilmişdir.

1964-cü ildən Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarına əsasən, Azərbaycan alimlərinin elmi nailiyyətlərini, onların həyat və yaradıcılığını əks etdirən "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə şəxsi biblioqrafik göstəricilər çap edir və bu iş bu gün də uğurla davam etdirilir.

1967-ci ildə kitabxana Akademiya şəhərciyinə köçürülmüş, "Nizamnaməsi", strukturu, elmi-metodiki şurası təsdiq edilmiş, oxuculara xidmət işində mütərəqqi üsullar tətbiq edilməyə başlanılmışdır.

1960-cı illərdə kitabxananın fondu hədiyyələr və şəxsi kolleksiyalar hesabına da xeyli zənginləşmişdi. Hazırda Mərkəzi Elmi Kitabxananın fondlarında müxtəlif elm sahələrinin görkəmli nümayəndələrinin 43 adda şəxsi kolleksiyası, eləcə də Akademiklər zalında olan Diplomatik guşədə 26 ölkənin 33 adda kitab kolleksiyası qorunmaqdadır.

1972-ci ildə Mərkəzləşmiş Kitabxana Sisteminə çevrilən kitabxana 1978-ci ildən respublika miqyasında təbiət və dəqiq elmlər üzrə əsas depozitar kitabsaxlayıcı kimi fəaliyyət göstərmişdir.

1984-cü ildən Əsaslı Kitabxana Mərkəzi Elmi Kitabxana adlanır və respublikamızda nəşr edilən çap məhsullarının pulsuz məcburi nüsxələrini alır.

1993- cü ildə Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkədə kitabxana işinə olan diqqət və qayğı Mərkəzi Elmi Kitabxananın da işinə müsbət təsir göstərmiş, kitabxana pozulmuş əlaqələrini bərpa etmiş, yeni-yeni layihələrin iştirakçısına çevrilmiş, fondlarını zənginləşdirməkdə davam etmişdir.

4 yanvar 2003-cü ildə Ulu öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinə əsasən Mərkəzi Elmi Kitabxana elmi müəssisə statusu qazanmış, bu da burada həyata keçirilən islahatlara böyük təkan vermişdir. Elə həmin ildə kitabxananın yanında kitabxanaşünaslıq, biblioqrqfiyaşünaslıq və kitabşünaslıq üzrə aspirantura açılmışdır.

Bu da təkcə kitabxanaşünaslıq elminin inkişafına deyil, eyni zamanda informasiya cəmiyyətinin tələblərinə cavab verən müasir tədqiqatlar nəslinin formalaşmasına xidmət edən mühüm bir tədbir kimi qiymətləndirilməlidir. 2002-cü ildən başlayaraq Mərkəzi Elmi Kitabxanada kitabxana proseslərinin avtomatlaşdırılması və elektron kataloqun bə elektron kitabxananın yaradılmasının əsası qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinə, bu xüsusda Mərkəzi Elmi Kitabxanaya xüsusi diqqət və qayğısı olmuşdur. Belə ki, kitabxananın müstəqil bina ilə təmin edilməsini, oxuculara həftə ərzində fasiləsiz və iki növbəli xidmət göstərilməsi üçün şərait yaradılmasını kitabxana-informasiya təminatında keyfiyyətcə yeni tarixi mərhələ hesab edən kitabxana işinin qabaqcıl mütəxəssisləri və akademiya rəhbərliyinin müraciəti ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına müasir tipli yeni binanın tikilməsi üçün Prezident İlham Əliyev 29 aprel 2011-ci il tarixli Sərəncam imzalamışdır. Həmin ilin noyabrında dövlətimizin başçısı kitabxananın yeni binasının təməlini qoymuş, tikinti üçün ilkin olaraq prezidentin Ehtiyat Fondundan 2 (iki) milyon manat vəsait ayrılmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası üçün tikilmiş yeni binanın ümumi sahəsi 28 min kvadratmetrdən çoxdur.Burada beynəlxalq standartlara uyğun səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Binada mövcud olan 14 oxu zalında eyni vaxtda 1000-dən çox oxucuya elektron və ənənəvi xidmət göstərmək mümkündür.

Kitabxana binasında 4 milyona yaxın sənədin saxlanmasına imkan verən qapalı və xüsusi şəraitli fondlar vardır.

Hazırda Mərkəzi Elmi Kitabxana 50-dən artıq dildə dünya ədəbiyyatı, tarixi, elmi, incəsənətini özündə əks etdirən 2 milyona yaxın sənədin qorunub saxlandığı , 10000-dən artıq istifadəçiyə xidmət göstərən elmi mərkəzdir.

Azərbaycan , rus,türk, fars, ərəb, ingilis, alman, fransız və digər dillərdə olan fondların xronoloji əhatəsi XVI-XXI əsrləri əhatə edir.

Ölkə kitabxanaları içərisində ən qədim kitab da burada qorunmaqdadır. Kitab 1502-ci ilə aid "Müxtəlif səhifələrdən və müəllifin məcmuələrindən ibarət heptologiya" monoqrafiyasıdır.

Bu gün Mərkəzi Elmi Kitabxananın yenilənən fəaliyyətinin ana xəttini dünyada baş verən kitabxana-informasiya prosesləri kontekstində oxuculara xidmət sisteminin müasir modelinin hazırlanıb həyata keçirilməsi təşkil edir. Burada oxuculara xidmət işi elmi proseslərin informasiya təminatının dinamikliyi nəzərə alınmaqla keyfiyyət və təşkilati baxımdan yeni mütərəqqi iş üsulları ilə zənginləşdirilir.

**Ədəbiyyat**

1. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi: f.1, siy.1, iş1.

2. *Rüstəmova, A*. Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920 - iyun1941-ci illər).- Bakı, Elm və təhsil, 2014.- 216 s.

3. *Xələfov, A*. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə.- Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2007.- 552 s.

4. *Xələfov, A*. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə.- Bakı, “Bakı Universiteti” nəşriyyatı, 2010.- 432 s.